# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №08 (78) • 27.02.2012

AzadliqRadiosu.az

**Bakıda Xocalı yürüşü** səh.2

**«Marxal»da prezident iqamətgahı tikilir?** səh.3

**Saatlı və Sabirabadın bəzi kəndləri polis nəzarətindədir...** səh.5

**Как Россия влияет на Азербайджан** səh.7

**Gənclərin Hüquqlarını Müdafiə Komitəsi mitinqə hazırlaşır** səh.8

**Taksi sürücülərinin üzləşdiyi yeni problem** səh.11

## Maraqlı videolar

- CNBC "Çirkli zəngin" filmində Azərbaycanın adını çəkir
- Ermənistan «Eurovision»un Bakı finalında iştirak edəcəkmi?
- "Koroğlunu iqtidara qarşı qoymaq lazım deyil"

**www.AzadliqRadiosu.az**

# Almaniyanın 49, Azərbaycanın 397 milyon xərclədiyi tədbir




**«Eurovision»da milyon birinciliyi** səh.9-10

## Serj Sarkisyan Xocalıda dinc əhaliyə divan tutulduğunu etiraf edir

Ermənistanın prezidenti Serj Sarkisyan bu barədə Qarabağ münaqişəsindən bəhs edən "Qara bağ" kitabının müəllifi, məşhur jurnalist Thomas de Waala verdiyi müsahibədə deyir. Hələ Ermənistanın müdafiə naziri olarkən – 2000-ci il dekabrın 15-də verdiyi müsahibəsində Sarkisyan Xocalı qırğınında SSRİ-nin 366-cı alayının iştirakı ilə bağlı suala da cavab verir.

səh.2

Meqatənhalıq



**Xaricdən alınan bahalı ağacların sirləri...** səh.5

Leyla Əliyeva: **"Mənim özümün biznesim var"** səh.6

Зардушт Ализаде: **"Нас пытаются использовать против Ирана"** səh.7

**Rafiq Tağının ailəsi qorxu içində yaşayır** səh.13

# Bakıda Xocalı yürüşü



**Fevralın 26-da Xocalı faciəsinin 20-ci ildönümündə Bakıda yürüş keçirilib. "AzərTAc" xəbər verir ki, aksiyada 60 mindən çox insan iştirak edib. Yürüşün keçdiyi prospekt və küçələrdə 20 il əvvəl baş vermiş hadisələri əks etdirən fotoşəkillər, qurbanların adları yazılmış transparantlar tutan gənclər düzülüb. Transparant və plakatlarda həm də faciənin təqsirkarlarından cavab tələb etmək, onları cəzalandırmaq, hadisəyə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək barədə çağırışlar yazılıb. Yürüş iştirakçıları Azərbaycan himnini oxuyublar.**

Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Ana harayı" abidəsi önünə əklil qoyub. Yürüşdə iştirak edən baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev də abidə önünə çiçək qoyublar. Yürüşdə Milli Məclisin deputatları, nazirlər, komitə və şirkətlərin rəhbərləri, diplomatik korpusun nümayəndələri, dini konfessiyaların başçıları, sağ qalmış Xocalı sakinləri də iştirak ediblər. Onlar da fəxri qarovulun düzüldüyü abidə önündə baş əyərək əklil qoyublar.

"Ana harayı" abidəsi önündə toplanan müxalif düşərgənin təmsilçiləri birgə Azərbaycanın dövlət himnini oxuyublar. Müxalifət liderləri İsa Qəmbər və Əli Kərimli çıxış ediblər. AXCP sədri Əli Kərimli çıxışında "Bu faciəni törədənlər cəzalandırılmalıdır. Onlara ən böyük cəza Qarabağın azad edilməsi olar" deyib.

20 il öncə - 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni hərbi birləşmələri Rusiyanın Xankəndindəki 366-cı motoatıcı alayı ilə birgə Xocalı şəhərini işğal edib. Blokadada qalan Xocalı sakinləri güllələbaran edilib.

Rəsmi məlumatlarda həmin vaxt 613 nəfərin öldürüldüyü deyilir. Ölənlərin 63-ü uşaq, 106-sı qadın, 70-i yaşlı olub. 8 ailə isə tamam məhv edilib. Həmçinin 487 nəfər yaralanıb, onlardan 76-sı uşaqdır. 1275 nəfər əsir götürülüb. Girov götürülənlərdən 150 nəfərin taleyi bu günədək məlum deyil. 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Rəsmi hesablamalara görə, Xocalının işğalı nəticəsində Azərbaycan dövlətinə və vətəndaşlarına 140 milyon manatdan artıq ziyan vurulub.

***Şahnaz Bəylərqızı***

# Sarkisyan Xocalıda dinc əhaliyə divan tutulduğunu etiraf edir



Serj Sarkisyan Qarabağdakı erməni əsgərləri arasında. 12 noyabr 2010

**Ermənistanın prezidenti Serj Sarkisyan bu barədə Qarabağ münaqişəsindən bəhs edən "Qara bağ" kitabının müəllifi, məşhur jurnalist Thomas de Waala verdiyi müsahibədə deyir. Hələ Ermənistanın müdafiə naziri olarkən – 2000-ci il dekabrın 15-də verdiyi müsahibəsində Sarkisyan Xocalı qırğınında SSRİ-nin 366-cı alayının iştirakı ilə bağlı suala da cavab verir.**
**Müsahibənin Xocalıya aid olan hissəsini təqdim edirik.**

<u>Thomas de Waal:</u> Ordunun peşəkarlaşma dərəcəsindən danışırıqsa, mən də Xocalı ilə bağlı sual vermək istəyirdim. Çünki heç kim çox sayda azərbaycanlının Xocalıdan qaçarkən həlak olduğunu və bunun Əsgəran yaxınlığındakı hansısa Qarabağ dəstələrinin işi olduğunu inkar etmir. Amma niyə siz bunu peşəkar Qarabağ əsgərlərinin deyil, qəzəblənmiş insanların törətdiyini deyirsiniz?

<u>Serzh Sarkisian:</u> Bilirsiniz, belə şeylər haqqında açıq danışmırlar. Nə demək mümkündürsə, onu deyirlər. Mən də belə edəcəm. Birincisi, Azərbaycanın keçmiş rəhbəri (Ayaz Mütəllibovu nəzərdə tutur – red. ) deyirdi ki, bunu törədənlər ermənilər deyil, azərbaycanlılar özləri idi. Amma deyim ki, həqiqət başqa ola bilər. Xocalı bir vaxtlar bütün Qarabağı boğaza yığmışdı. Orada aeroport var idi, Ermənistanla yeganə əlaqəmiz də hava nəqliyyatı ilə idi, orada da "OMON" var idi, nə isə araşdırırdılar, çox sayda insanları həbs edirdilər.

Bundan başqa, demək olar ki, Stepanakertin (Xankəndinin - red.) tam yaxınlığında yerləşən Xocalı sakinləri oranı atəşə tuturdular. Amma, zənnimcə, əsas məsələ başqa şeydədir. Xocalıya qədər azərbaycanlılar bizimlə, sadəcə, zarafat etdiklərini düşünürdülər. Azərbaycanlılar elə bilirdilər ki, ermənilər dinc əhaliyə əl qaldıra bilməyən insanlardır. Bütün bu düşüncələri dəyişmək lazım idi. Belə də oldu.

Bu gənclərin arasında Bakıdan, Sumqayıtdan qaçanlar da olduğunu nəzərə almaq lazımdır. Baxmayaraq ki, mənim fikrimcə, çox, lap çox şey şişirdilib. Azərbaycanlılara hər hansı yeri Sumqayıtla eyniləşdirmək üçün bəhanə lazım idi. Amma onları heç cür müqayisə etmək olmaz.

Bəli, Xocalıda da həqiqətən dinc əhali var idi. Eyni zamanda dinc əhali ilə birgə əsgərlər də var idi. Amma mərmi uçarkən dinc sakini əsgərdən fərqləndirmir, onun gözü yoxdur. Getmək üçün gözəl imkan olmasına baxmayaraq, dinc əhali orada qalırsa, deməli, o da döyüş əməliyyatlarında iştirak edir...

# Prezident Administrasiyası qarşısında aksiya


Aksiya zamanı çəkilmiş foto

*Fevralın 24-də özlərini «Aldadılmış Payçılar Birliyi»nin üzvləri kimi təqdim edən 50-dən çox vətəndaş Prezident Administrasiyası qarşısında aksiya keçirməyə cəhd edib. Müxtəlif tikinti şitkətləri tərəfindən aldadıldıqlarını deyən vətəndaşlar əllərində şüarlarla haqlarının tapdanmasına etiraz ediblər.*

*Aksiya zamanı polis aksiyaçıların şüarlarını əllərindən alıb cırıb. Bundan sonra etiraz edən payçılardan bir neçəsi Prezident Administrasiyasının qəbul şöbəsinə dəvət edilib. Qəbulda onlara yenidən Bakı Şəhər İcra Hakimiyyətinə üz tutmağı məsləhət bildilər. Şikayətçilər deyir ki, onlar 5 ildir BŞİH, məhkəmələr və Prezident Administrasiyası arasındakı labirintdə azıblar. Etiraz edən payçılar əgər tələbləri yerinə yetirilməzsə, aclıq aksiyası etməyi düşündüklərini deyirlər.*

Etiraz edənlər "GEN" MMC, "Kamran" MTK, "FUAD LTD" MMC və sair tikinti şirkətləri tərəfindən aldadıldıqlarını iddia edən yüzlərlə sakindi.

# «Marxal»da prezident iqamətgahı tikilir?


«Marxal»

*Son vaxtlar Şəkidə tez-tez eşidilirdi ki, Kiş kəndi yaxınlığında yerləşən «Marxal» istirahət zonasında prezident iqamətgahı tikiləcək. Ərazidə heç bir tikinti aparılmasa da, hökumətin internet resurslarında Şəki sakinlərinin dedikləri qismən təsdiqini tapdı. «Marxal» ötən ilin oktyabrından Azərbaycan Prezidenti İşlər İdarəsinin balansına verilib. Nazirlər Kabineti «Marxal» istirahət zonasını Əmlak Məsələləri Dövlət Komitəsinin balansından çıxarıb. Ötən il oktyabrın 11-də verilən 311 saylı sərəncamdan məlum olur ki, sahəsi 2030 kv.metr olan istirahət zonası Prezidentin İşlər İdarəsinə verilir. İşlər İdarəsinin istirahət zonasından hansı məqsədlərlə istifadə edəcəyi açıqlanmır.*

Sovet dönəmində tikilən «Marxal» uzun müddət Şəki İpək Kombinatının balansında olub. 1998-ci ildə onu sahibkar Tehran Lətifov özəlləşdirib. 2006-cı ildə isə Şəki İpək Kombinatı (indiki «Şəki İpək» ASC) bu obyektin düzgün özəlləşdirilməməsi ilə bağlı məhkəmədə iddia qaldırmışdı. Yerli məhkəmələrdə çəkişmələrdən sonra, nəhayət, 2010-cu ildə Ali Məhkəmənin qərarı ilə «Marxal»ın özəlləşdirilməsi ləğv edilib, istirahət zonası Əmlak Məsələləri Dövlət Komitəsinə verilib.

***Arifə Kazımova***




**"Qaynar Xətt"**ə yaz, hüquqşünaslardan məsləhət al. Suallara hər həftənin şənbə saat **18:05-də** hüquqşünaslar canlı efirdə cavab verəcəklər. Həmçinin cavablar sayta göndərilmiş suallara əlavə olunacaq. Suallarını, problemlərini yaz.

**"Online vəkil"**lə başqa əlaqə vasitələri:

**Telefon:** 436 77 41 (Zənglər avtomat tərəfindən qəbul olunur. Ona görə sözünü bildirəndən sonra telefon nömrənizi də deyin ki, geri zəng edib əlaqə saxlaya biləK).

**Elektron poçt:** cavadovae@bureau-mail.rferl.org

**Canlı efir zamanı SMS:** (+99450) 7441017

## AzadliqRadiosu.az saytında maraqlı videolar

- **CNBC telekanalı "Çirkli zəngin" adlı verilişində Azərbaycanın da adını çəkir**
- **Ermənistan «Eurovision»un Bakı finalında iştirak edəcəkmi?**
- **Korrupsioner prezident (250Plyus)**
- **"Koroğlunu iqtidara qarşı qoymaq lazım deyil"**
- **Bakı sakinləri "23 fevral" haqqında nə deyir?**
- **Xırdalandan Bakıya gəlmək əzabı**

# Gəncləri «Xocalıya ədalət» deməyə qoymadılar



**Fevralın 26-da polis gənclərin Nizami küçəsində Xocalı ilə bağlı yürüşünə icazə verməyib. Polislə aksiyaçılar arasında qarşıdurma yaranıb. Bu haqda AzadlıqRadiosuna aksiya iştirakçılarından biri, «Dalğa» Gənclər Təşkilatının üzvü Pərviz Əzimov deyib. Onun sözlərinə görə, gənclərdən bir neçəsini polis döyüb: «Biz, sadəcə, «Xocalıya ədalət» devizi altında aksiya keçirməyi düşünürdük. Qoymadılar».**

AXCP Gənclər Təşkilatının sədri Əbülfəz Qurbanlı deyir ki, polis gənclərdən Bəyim Həsənliyə, Toğrul İbrahimə və Dadaş Sadıqlıya əl qaldırıb: «70-dək gənc Nəsimi heykəli yaxınlığında toplanıb dinc aksiya keçirmək istədik. Biz, sadəcə, plakatlar tutacaqdıq. İcazə verilmədi. Məcbur qalıb başqa küçəylə yürüş etdik».

Aksiyanın təşkilatçısı Gənclərin Hüquqlarını Müdafiə Komitəsidir. Komitədə bir neçə gənclər təşkilatı birləşib.

# Xaricdən alınan bahalı ağacların sirləri...


Baobab ağacı

**Fevral ayı Bakıda çox şaxtalı keçdi. Ayın 8-də isə 11 dərəcə şaxta vardı. Sinoptiklər deyirdilər ki, həmin gün Bakıda 1969-cu ildə qeydə alınan mənfi 10 dərəcə rekord göstərici təzələnib. Həmin vaxt küçələrdə tək-tük adam gözə dəyirdi. Şaxtalı-qarlı havanın altında qalan sahibsiz adamlar, sahibsiz heyvanlar, bir də ağaclar oldu. Onların arasında Bakının iqliminə uyğun olmayan, xarici ölkələrdən alınıb gətirilən ağaclar da vardı – palmalar, baobablar, hantorriyalar, müxtəlif kollar, bitkilər...**

**ÜŞÜYƏN PALMALAR**



Nazim Məcidov

Palmalar 2008-ci ildən Bakıda xaricdən gətirilib əkilən ağacların bir hissəsidir. Bakı Bulvar İdarəsindən verilən məlumata görə, son 4 il ərzində Afrika, Argentina, İtaliya da daxil olmaqla müxtəlif ölkələrdən bulvara 32 adda yeni növ bitki gətirilib. Üzü dənizə baxdığından həmin palmalar bulvardakı başqa palmalar kimi yaşıl deyil, budaqları əyilib. Elə palmaların yaxınlığında iri qablarda əkilən kol bitkiləri də solub, saralıb. Bakı Bulvar İdarəsinin rəisi müavini Nazim Məcidov isə deyir ki, «Hər şey qaydasındadır, onlar mənim gözümə solğun görünmür».

Milli Elmlər Akademiyası Mərkəzi Nəbatət Bağının direktoru, biologiya elmləri doktoru Oruc İbadlı deyir ki, palma ağaclarını Bakı kimi küləkli şəhərdə əkmək yolverilməzdir: «Bu ağacların biri 3-5 min manatdır. Onları küləyin qabağına düzmək israfçılıqdan başqa bir şey deyil».

**BAOBAB AĞACININ BAKI SİRLƏRİ**

Bakı bulvarında 205 və 215 yaşında iki nəhəng baobab ağacı da var. 2010-cu ildə Paraşüt qülləsinin yanında əkilmiş 7,5 tonluq bu nəhənglər indi elə də nəhəng görünmür. Ağaclardan biri müvazinətini saxlamaq üçün başqa bir ağaca bağlanıb. Digər baobabın köməyinə isə yaxınlıqdakı kafenin dəmir dirəyi çatıb. Onu kəndirlə dirəyə bağlayıblar. Şaxtadan qorumaq üçün hər iki ağacı qalın parçalarla, sellofanlarla sarıyıblar. Ağacların aşağı hissələri isə yerdəki dəmirlərə bərkidilib. Bulvar əməkdaşları deyirlər ki, keçən ilin payızında baobablar küləyə tab gətirməyib, tarazlıqlarını itiriblər. Nəbatət bağının direktoru Oruc İbadlı deyir ki, Afrikanın quru savannaları üçün xarakterik olan baobab ağacları Bakı küləyində yaşaya bilməz: «Bu ağacların küləkdə quruma ehtimalı var, ola bilsin ki, bir-iki il keçəndən sonra məhv olacaqlar. Çünki onlar bu iqlimdə əkilməməlidirlər».

Oruc İbadlı deyir ki, 1972-ci ildə Nəbatət bağında baobab ağaclarından kolleksiya üçün bir neçə ədəd əkibmişlər. Həmin ağacları xüsusi aqrotexniki qaydada əkib becərsələr də, 7 ildən sonra onlar məhv olub: «Bir ağacı toxumla cücərdib əkmək daha effektlidir. Bizim toxumla əkdiyimiz ağaclar bu iqlimə dözmədi. 200 yaşlı ağaclar necə dözər?»

Bakı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov isə deyir ki, baobabları soyuq və küləkdən qorumaq üçün bağlayıblar. Nazim Məcidov deyir ki, Bakı bulvarındakı xarici ölkələrdən gətirilib əkilmiş ağaclardan biri belə şaxtalı havalardan ziyan çəkməyib: «Çünki həm burdakı mütəxəssislərimiz, həm də o ağacları bizə verən təşkilat hansı ağaca necə qulluq göstərmək haqda tövsiyələrini verib. Buna çox ciddi nəzarət var».

Bununla belə Nazim Məcidov etiraf edir ki, əsil reallığı yay aylarında görmək mümkün olacaq: «Çünki elə ağaclar var ki, qış aylarında yarpaqlarını tökür. İndi bu ağacların diriləcək-dirilməyəcəyini demək olmaz. Onu Allahdan başqa heç kəs deyə bilməz. Ancaq ehtimal çox azdır». Bulvar İdarəsinin rəis müavini deyir ki, keçən il baobab ağaclarının yarpaq açması üçün çox həyəcan keçirirmişlər: «Ancaq birinci il əkildiyindən də çox gözəl, inkişaf etdi, təzə budaqlar atdı.


Milli Parkdakı palma ağacları

Ümid edirik ki, bu il də elə olacaq».

**SƏNİN QİYMƏTİN NEÇƏYƏDİR, AĞAC?**

Qeyri-rəsmi iddialara görə, dövlət büdcəsindən Bakı bulvarında xaricdən gətirilib əkilən ağaclara 50 milyon manat vəsait ayrılıb. Elə adının çəkilməsini istəməyən bulvar əməkdaşları deyirlər ki, baobablardan birinin qiyməti 30 min manatdır. Hantorriya, palma və başqa ağacların hərəsinin 5-6 min qiyməti var. Bakı Şəhər Yaşıllaşdırma Təsərrüfatı Birliyi alınan ağaclara dövlət büdcəsindən nə qədər vəsait ayrılması haqqında məlumat vermədi. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən isə bildirdilər ki, bulvardakı ağaclara onlar nəzarət etmir. Bakı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov deyir ki, idarə şəffaf təşkilatdır. Ancaq o ağacların alınıb gətirilməsinə çəkilən xərclər haqqında məlumat verə bilməz. Çünki bu haqda məlumatı yoxdur...

**«ABŞERONDA ZEYTUN OLA-OLA, GEDİB BUNU KƏNARDAN GƏTİRİB ƏKİRLƏRSƏ...»**

Bakı Bulvar İdarəsi isə bildirir ki, onları təmin edəcək yerli firmalar yoxdur. Nəbatət bağının direktoru Oruc İbadlı isə deyir ki, Bakı bulvarından bizə sifariş gəlmir: «Təklifimizi qəbul etmirlər. Bizim 45 hektarlıq sahəmiz, 2500-dən çox bitki növümüz var. Görünür xaricdən ağac almağa maraqları var, bizdəkini neyləyirlər ki. Ancaq xaricdən alınan ağac 3 il yaşayacaq, bizdən verilən illərlə».

Üstəlik biologiya üzrə fəlsəfə doktoru Asif Mehrəliyev isə deyir ki, Bakı bulvarına gətirilmiş zeytun ağacları çürükdür: «Onların özəyi yoxdur, ömrü azdır. Ekzotikadan danışırlarsa, Qız Qalasının qarşısındakı Abşeron zeytunları onlardan da gözəldir. Əgər Abşeronda zeytun ola-ola, gedib bunu kənardan gətirib əkirlərsə, demək nəsə maraqları var».

***(davamı 5-ci səhifədə)***

# Saatlı və Sabirabadın bəzi kəndləri polis nəzarətindədir...



Novruzlu kəndinə gedən yolda polis maşını

**Saatlı rayonunun 2, Sabirabad rayonunun isə 5 kəndinin yeganə çıxış qapısı sayılan asma körpü fevralın 23-dən polis nəzarətindədir. 2 gündür ki, asma körpüdən keçib gedənlər polislərin sorğu-sualı ilə üzləşirlər. Novruzlu kəndində bizə bildirdilər ki, körpünün nəzarətə götürülməsi ötənilki daşqından zərərçəkən sakinlərinin fevralın 24-nə etiraz aksiyası təyin etmələridir.**

**QEYRİ-RƏSMİ FÖVQƏLADƏ VƏZİYYƏT**

Körpünün hər iki tərəfində dayanan polislər isə bu qeyri-rəsmi «fövqəladə vəziyyət»də qeyri-adi bir şey olmadığını bildirdilər. Post Patrul Xidməti maşınından bir qədər aralıda dayanan mülki avtomobilin yük yeri polis şitləri ilə dolu idi. Amma Saatlı Rayon Polis Şöbəsi rəisinin köməkçisi Əjdər Hüseynov bunda da qeyri-adi bir şey olmadığını bildirdi. Onun deməsinə görə, bir neçə gün əvvəl sakinlərin aksiya keçirmək istəməsi ilə bağlı məlumatlar olub, amma indi hər şey qaydasındadır: «Öz ərazimizdir, biz, sadəcə, durmuşuq. Görürsünüz də, heç kim yoxdur. Burda elə bir ciddi problem yoxdur».

Novruzlu kənd icra nümayəndəsi Oqtay Zülfüqarov isə kənddə hər hansı narazılığın olmadığını deyir. Körpüdə polis nəzarətinin olmasını da adi qarşılayır: «Onlar camaatın bu pis günündən istifadə etmək istəyirlər. Kənddə heç bir narazılıq yoxdur. Xaricdən maliyyələşən bəzi təşkilatlar var, onlar camaatın bu pis günündən istifadə etmək istəyirlər. Körpü mühüm ərazidir, polisdir, gəzir də, orda. Burda nə var ki?»

Amma polislərin və kənd icra nümayəndəsinin dediklərinin əksinə olaraq ətraf kəndlərin sakinləri bu vəziyyəti fevralın 24-nə təyin edilən aksiya ilə əlaqələndirirlər. Novruzlu kənd sakini Mirabad Rzayev deyir ki, körpüyə nəzarətlə yanaşı, o daxil olmaqla kəndlərdən adamları polisə çağırıb aksiyaya çıxmamaqla bağlı onlardan yazılı iltizam alıblar: «Kimsə polisə məlumat verib ki, guya aksiyanın təşkilatçısı və başında duran mənəm. Məni dünən çağırdılar polisə, dedilər guya Bakıdan adamlar dəvət edib kənddə aksiya keçirəcəyəm. Məndən yazılı iltizam aldılar. Mənə bölmədə dedilər ki, iltizam verin ki, düz ayın sonuna qədər biz nümayiş etməyəcəyik. Mən də yazdım ki, nümayiş etməmişəm və nə də eləmək fikrində deyiləm. Mən heç bir aksiyanın da təşkilatçısı deyiləm».

**«MƏNİM BİR TƏLƏBİM VAR»**

Mirabad Rzayevin dediyinə görə, ailələri böyük olsa da, onlara ayrı təsərrüfatı olan oğluna verilmiş ikiotaqlı evdə yaşamaq təklif olunur. Mirabad Rzayev isə ikiotaqlı evdə bir neçə ailənin yaşamasının mümkün olmadığını bildirir. Bu səbəbdən də o hələ də Novruzlu kəndindəki qəzalı evdə yaşayır: «Mənim bir tələbim var, mənə ev versinlər. Mənə düşən evi satıb yeyiblər, indi mən qalmışam qəzalı evdə».

Kənddə görüşdüyümüz bir neçə ailə də məcburiyyət üzündən qəzalı evlərdə yaşadıqlarını bildirdilər. Novruzlu sakini Mehdi Rzayevin sözlərinə görə, yeni qəsəbədə onlara verilən torpaq sahəsi az olduğundan heyvandarlıqla, əkin-biçinlə məşğul olmaq çətindir. Deməsinə görə, o və əksər kənd sakinlərinin tələbi odur ki, onlar yeni qəsəbəyə köçəndən sonra köhnə təsərrüfatlarına toxunulmasın. Mehdi Rzayev deyir ki, bu tələblərinə müsbət cavab verilmədiyindən 20-25 ailə yeni qəsəbəyə köçməkdən imtina edib.

Rəsmi qurumlar aksiya keçirmək istəyən Saatlının Novruzlu, Dəllər, Sabirabadın Əsgərbəyli, Qasımbəyli, Muradbəyli, Axtaçı və Naxalıq kənd sakinlərinə söz veriblər ki, fevralın 28-də qapalı yerdə onlarla görüş keçirəcəklər. İndi seldən zərərçəkən sakinlər həmin tarixi gözləyirlər.

***Maarif Çingizoğlu***

# Xaricdən alınan bahalı ağacların sirləri...

***(əvvəli 4-cü səhifədə)***

Bakı bulvarına xarici ölkələrdən ağac və kolları "Kommunal Xidmət və Abadlaşdırma" MMC adlı təşkilat gətirir. Qurumun direktor müavini Vəli Şahverdiyev deyir ki, onların qiymətləri haqqında onda məlumat yoxdur.

Satınalmalar üzrə Dövlət Agentliyinin saytında yerləşdirilmiş məlumata görə, 2011-ci ildə Bakıdakı gül və gül məhsullarına 20 min, əkin materiallarına 4 milyon 245 min 254 manat sərf olunub. Bundan başqa, ağac-bəzək bitkilərinə 142 min 550 manat, gübrə alınmasına isə 340 min manat xərclənib. 2010-cu ildə dövlət büdcəsindən Dənizkənarı Bulvar İdarəsinə 12 milyon manat



ayrılmışdı. Keçən il isə bulvardakı obyektlərin tikintisi və yenidənqurma işləri üçün büdcədən 30 milyon manat vəsait ayrılıb. Keçən ilin dekabrında prezident İlham Əliyevin sərəncamı ilə Dənizkənarı Bulvarın genişləndirilməsi ilə bağlı Prezidentin Ehtiyat Fondundan daha 4 milyon manat ayrılıb. 2012-ci ildə dövlət büdcəsindən mədəniyyət və turizm sahəsinə 6 qurum üçün ümumilikdə 255,4 milyon manat ayrılıb. Bu təşkilatların içində Dənizkənarı Bulvar İdarəsi də var.

**«KORRUPSİYANIN YEMİ»**

Bu rəqəmlər içərisində Bakı bulvarındakı yaşıllaşdırmaya konkret nə qədər vəsait ayrılması dəqiq göstərilmir. İqtisadi İnnovasiya Mərkəzinin rəhbəri Məhəmməd Talıblı deyir ki, bu rəqəmlərin dəqiq göstərilməməsi xaricdən idxal olunan bahalı ağacların «korrupsiyanın yemi» rolunu oynamasını asanlaşdırmaq üçündür.

***Kəbiran Dilavərli***

# Leyla Əliyeva: "Mənim özümün biznesim var"



Leyla Əliyeva

**Amerikanın CNBC telekanalı beynəlxalq miqyaslı korrupsiya, çirkli pulların yuyulması, vergidən yayınma barədə "Çirkli zəngin" sənədli filmini yayımlayıb. Filmdə Azərbaycandan da danışıb. Onun qısa məzmunu belədir. Filmin müəllifi Scott Cohn-un söhbətinə Dubayla başlayır.**

**DUBAYIN MƏŞHUR PALM JUMİERA ADASINDAN DANIŞAN COHN DEYİR:**

Bu gün Dubay ticarət paytaxtı olmaqla bərabər, həm də "çirkli zənginlər" üçün populyar yerdir. Varlılar üçün mülklərin yer aldığı süni ada - Palm Jumeira o qədər böyükdür ki, havadan da görünür. 2 milyon dollardan başlanan villaların sahibləri David Beckham, Bradd Pitt və Angelina Jolie kimi superstarlar və gənc Heydər Əliyevdir. 2009-cu ildə o hələ 11 yaşında olanda burada 75 milyon dollar dəyərində düz 9 mülk alıb. İlk dəfə "Vaşinqton Post" qəzetində dərc edilən rəsmi sənədlərə görə, onun 20 yaşlarında olan bacıları Arzu və Leyla Əliyevanın da bir neçə mülkü var.

Onlar dəbdəbəli həyat tərzi sürürlər. Məclislər, moda, dəbdəbə içində yaşayırlar. Onların hansı ölkədən çıxdığına baxanda çox böyük şeylər əldə etdiklərini demək olar. Çünki Xəzər sahilindəki keçmiş Sovet respublikası olan Azərbaycanda ortalama bir nəfər ayda 420 dollar qazana bilir.

**AZƏRBAYCAN PREZİDENTİNİN ÖVLADLARINDAN SÖHBƏT DÜŞÜR:**

Bu imkanlı və zəngin gənc maqnatlar ölkənin birinci şəxsi – Prezident İlham Əliyevin uşaqlarıdır. İlham Əliyev hakimiyyəti 2003-cü ildə, atası öləndən sonra alıb. Ancaq atasının şəkillərini hələ də paytaxt Bakının hər yerində görmək olar. Amerika diplomatları Əliyev ailəsini "Xaç atası" filmindəki Carleone ailəsinə bənzədir. Wikileaks-də dərc edilən Dövlət Departamentinin daxili yazışmalarına görə, İlham Əliyev zahirdən filmdəki rasional Maykl, batildə isə Sanninin qarışığı təsirini bağışlayır.

**AZƏRBAYCANI ZƏNGİN NEFT ÖLKƏSİ KİMİ TƏQDİM EDƏN COHN DEYİR:**

Azərbaycanın nə qədər neft-qazı olduğunu bilmək üçün gecə-gündüz yanan Yanardağı görmək kifayətdir. Azərbaycan 7 milyard barel təsdiqlənən neft ehtiyatı ilə dünyada 19-cudur. Gündə milyonlarla barel neft ixrac edən kəmər də buradan başlayır. Burada o qədər neft və qaz var ki, Azərbaycan iqtisadiyyatı son 10 ildə 3 dəfə böyüyüb. Xarici ticarətdə Azərbaycan ixracının payı idxalından 12 milyard dollar çoxdur. Və bütün bu pullar ayrıca Neft Fonduna yığılır, artıq 30 milyard dollara çatan vəsait Əliyev rejiminin nəzarəti altındadır.

Filmdə deyilir ki, qanuna görə, Azərbaycan prezidenti başqa bizneslə məşğul ola bilməz. Onun illik maaşı isə 280 min dollardır. Ancaq ofşor şirkətləri vasitəsiylə Əliyev ailəsi istədiyini edir. Təkcə Panamada prezident ailəsinə məxsus olan 11 şirkət var. Həm də parlamentin üzvü olan, ancaq iclaslara nadir hallarda qatılan Prezidentin xanımı Mehriban Əliyeva plastik əməliyyatlara da çox həvəslidir. Wikileaks-də dərc edilən ABŞ diplomatları yazışmalarında keçirdiyi əməliyyatlar üzündən Birinci xanımın emosiyalarını tam ifadə edə bilməməsindən də yazılır.

İlham Əliyevin qızlarından biri - Arzu Azərbaycanda turizmi təşfiq edən reklamlarda çəkilməsiylə ad çıxarıb. O biri qızı Leyla Əliyeva isə yüksək elitanın təmsilçisdir. O, rusiyalı pop-star və moda jurnalının naşiri olan biznesmenlə ailə həyatı qurub. Birlikdə bacılar Azərbaycanın mobil və aviasiya sahələrində çox böyük paya malikdirlər.

**LEYLA ƏLİYEVA-nın CAVABI**

Cəmi 25 yaşı olan Leyla Əliyevadan bu qədər varlanmağı necə bacardığını öyrənmək istədik. Nyu-York hotellərinin birində keçirilən seçilmiş adamlar üçün olan məclislərdən birinə qatıldıq. Leyla Əliyeva burada xərçəng və qan xəstəlikləri olan uşaqlara yardım elədiyi üçün mükafat alırdı.

CNBC müxbiri belə gənc yaşında necə bu cür uğurlara nail olduğunu Leyla Əliyevadan soruşur.

<u>Leyla Əliyeva:</u>

- "Məncə əsas odur ki, gərək hədəfin olsun. Hədəf olandan sonra ona nail olmaq daha asandır".

**CNBC:**

- "Bu cür dəbdəbəli tədbirlərlə bizim Azərbaycanda gördüyümüz durum arasında təzadı fərq etməmək çox çətindir. Sənin ailənin var-dövlətinin haradan gəlməsi, sənin biznes maraqlarınla bağlı da bəzi suallar var. Bu məsələlərə aydınlıq gətirsəniz, çox sevinərdim".

Sual səslənəndə Leyla Əliyevanın üzündəki təbəssüm yox olur. Onu müşayiət edən şəxs kiməsə göstəriş verir.

<u>Leyla Əliyevanın cavabı:</u>

- "Mənim özümün də, ərimin də biznesi var. Amma mən burda biznesə görə deyiləm, bu, mədəni fəaliyyətimlə bağlıdır".

**CNBC:**

- "Sizcə, Azərbaycan xalqı bu cür möhtəşəm tədbir haqda nə düşünərdi?"

<u>Leyla Əliyeva:</u>

- "Ümid edirəm ki, onlar mənim bu mükafatımla qürur duyurlar. Çünki, dediyim kimi, mən bu mükafatı özüm üçün yox, Azərbaycanın indiki bütün gənc nəsli adından qəbul elədim".

Ancaq müxbir qeyd edir ki, Leyla Əliyevanın müşayiətçiləri müsahibəni mədəni şəkildə kəsirlər. Sonra isə çəkiliş qrupunu oradan uzaqlaşdırırlar.

**AZƏRBAYCANDAKI GƏNC NƏSİL - EMİN MİLLİ**

Filmdə sonra Leyla Əliyeva ilə eyni nəslin təmsilçisi olan Emin Millidən söz açılır. Onun ABŞ-da təhsil alıb qayıdandan sonra göstərdiyi fəallıqdan, "eşşək Azərbaycanda" klipindən sonra təzyiqlə üzləşməsindən, restoranda Adnan Hacızadə ilə olarkən döyülməsindən və şikayət etməyə getdiyi polis idarəsində tutulması və 17 ay həbsdə qalmasından danışılır.

**Yazının davamı AzadliqRadiosu.az saytında.**

# Как Россия влияет на Азербайджан



Сергей Маркедонов

**Заведующий отделом проблем межнациональных отношений Института политического и военного анализа Сергей Маркедонов в интервью РадиоАзадлыг говорит о Карабахском урегулировании, проблеме Ирана и влиянии «арабской весны»-**

*Как вы оцениваете нынешний статус российско-азербайджанских отношений? Он хороший ли, прекрасный ли, без эпитетов...*

- Ну, если без эпитетов, они рациональные. Здесь нет такой враждебности и не было таковой, которая наблюдается, например, в отношениях с Грузией. Но и нет того уровня партнерства, которое есть с Арменией - имеется в виду членство Армении в ЕврАзЕС, военное сотрудничество. Поэтому я бы назвал их (отношения с Азербайджаном – ред.) прагматичными, прагматическо-рациональными...

- Очень многие в Баку не верят в заявление, что «Москва не в силе решить проблему за вас». Многие считают, что у Москвы есть достаточно много рычагов давления на Армению, чтобы решить эту проблему. Все считают, что ключ от проблем находится в Москве.

- Так многие считают. Есть и те, которые считают, что он в Вашингтоне находится. В Тбилиси тоже многие верили, что в Вашингтоне... Нет, я думаю, что реальный ключ находится в Ереване и в Баку. Это не лицемерие. Мы сейчас поднимаем очень важный вопрос – что мы понимаем под урегулированием? Если решение вопроса исключительно только в целях Баку, то Москва должна давить на Ереван и этого добиваться. Но в даном случае интересы Баку и Москвы полностью на 100 процентов не совпадают. Задача Москвы, сегодня, после того, как в 2008 году резко ухудшились отношения с Грузией (она потеряна, фактически, кроме де-факто государств, которые Москва признала) не допустить очередной потери. Потеря еще одного государства в регионе – либо Азербайджана, либо Армении – чревата. Тогда из трех государств двое будут утрачены для взаимных отношений. Москва хотела бы сохранить, по разным причинам, добрые отношения и с Азербадйжаном, и с Арменией. Как быть, если две страны в конфликте? Поэтому приходится, довольно непосредственно, довольно таки шарахаясь, такую политику проводить.

Да, Армения важна как военный союзник. Азербайджан важен как сосед, при том сосед на дагестанском направлении, на Каспийском море. Карабахский конфликт должен будет быть решен на основе какого-то компромиса. Ни Баку не получит полный банк, ни Ереван. Вот так, чтобы было как мы хотим, «winner takes all» (победитель получает все) – вот такого не будет. Если она реализуется, допустим, то это породит новые конфликты.

Реальное стабильное примирение возможно только тогда, когда стороны отказываются от каких-то максималистских планок. А для этого нужен посредник, который будет искать эти формулы.

- А если Баку решится на военый путь?

- Я не уверен, что Баку на него решится. Этот путь чреват, во-первых, внутриполитической нестабильностью. Военное решение тогда имеет успех, когда это блиц-криг, когда это – Сербская Краина. Сейчас любай война ведется не только в формате военных действий, но и в информационном поле. Здесь даже грузинской ситуации у Азербадйжана не будет. Скажем, Запад консолидировано поддержит Азербайджан – нет, не будет этого. Раскол произойдет и внутри разных групп влияния на Западе и внутри разных гурпп влияния в Москве... Как на эту ситуацию Турция отреагирует – тоже большой вопрос. И не попытается ли Иран профиты из этой ситуации получить? Здесь слишком много вопросов для того, чтобы легко бросится в этот омут.

## Зардушт Ализаде: "Нас пытаются использовать против Ирана"

Отом, что происходило на минувшей неделе в Азербайджане - политолог Зардушт Ализаде: - На прошедшей неделе, прежде всего, состоялась встреча президента Ильхама Алиева с Фогом Расмуссеном, генсеком НАТО. Я думаю, что на встрече в основном речь шла о ситуации, связанной с Ираном. Реально, объективно, гласно, публично они ничего не сказали. Но сейчас все интересуются, как используют Азербайджан западные политики против Ирана. Азербайджану, по большому счету, не на руку выступать против Ирана. Он наш южный, сильный сосед, тем более что Азербайджан еще вступил в движение неприсоединившихся стран. Но все равно, учитывая слабость азербайджанской власти, нас пытаются использовать против Ирана. И, видимо, эти усилия дают свои плоды, потому что отношения Азербайджана и Ирана в последнюю неделю ухудшились.

Иран направил ноту протеста против Азербайджана за то, что мы якобы создаем условия террористам из Израиля для убийства иранских ученых. Но, я думаю, это, скорее, свидетельствует о слабости иранских спецслужб, иранских пограничных служб, чем о роли Азербайджана. Азербайджан это воспринимает как навет и клевету. Одновременно азербайджанские власти начали влиять на людей, которые связаны с Ираном. В частности, в селе Нардаран, который слывет оплотом шиизма в Азербайджане, начались обыски, аресты, запугивание населения. Одновременно арестовали двух азербайджанских журналистов иранского телевидения, естественно, с применением любимого ими приема - подсунули им наркотики. Одного из журналистов я знаю – он не то, что пьет, не курит даже.

# Sabiq ABŞ səfiri: "Amerika Azərbaycandan çox uzaqda yerləşir..."


Richard D. Kauzlarich

**1994-1997-ci illərdə ABŞ-ın Bakıdakı səfiri olmuş Richard Kauzlarich AzadlıqRadiosuna müsahibəsində Azərbaycanla İran arasında münasibətlərin gərginləşməsini, ölkədə demokratik islahatların vəziyyətini şərh edir. Səfirlə müsahibəni təqdim edirik.**

*- Sizcə, Washington indi Iranla Azərbaycan arasında yaşanan gərginlikdən narahatdırmı?*

- Mən hazırda Amerika hökumətində təmsil olunmadığım üçün onların konkret olaraq nə düşündüyünü deyə bilmərəm. Amma əminəm ki, Washington-da belə bir narahatlıq var. Digər tərəfdən, Iranla Azərbaycan arasında gərginlik yeni bir şey deyil. Xatırlayıram ki, mən Azərbaycanda səfir işlədiyim dövrdə də iki ölkə arasında mübahisələrin baş verdiyi vaxtlar olurdu. Amma bu, indi tamamilə fərqli kontekstdə baş verdiyi üçün daha çox narahatlıq doğurur.

*- Təbii ki, Amerikanın dünyadakı bütün problemlərin həlli üçün hazır resepti yoxdur. Amma, sizcə, Washington bu məsələdə Azərbaycana necə kömək edə bilər?*

- Əlbəttə, Azərbaycanla Amerika arasında əməkdaşlıq möhkəm olarsa, bu, Washington-un Bakıya edə biləcəyi köməyin mühüm bir elementi ola bilər. İki ölkə arasında əməkdaşlıq neçə illərdir ki, inkişaf etdirilir. Xüsusən də hər iki dövlətin Əfqanıstanla bağlı missiyada işbirliyinə görə. Buna görə də dövlətlərarası münasibətləri yüksək səviyyədə saxlamaq, Azərbaycanın təhlükəsizlik sahəsində üzləşdiyi vəziyyətin mürəkkəbliyini anlamaq çox mühümdür. Amma bu məsələdə də bir limit var. Amerika Azərbaycandan çox uzaqda yerləşir. Azərbaycan isə İranla həmsərhəd ölkədir.

*- İndi Azərbaycanda təkcə radikal islamçılara qarşı addımlar atılmır, həm də dünyəvi, demokratik müxalifət adlandırılan düşərgəyə qarşı təzyiqlərin olduğu deyilir. Sonuncu məsələ Washington-da çoxmu adamı narahat edir?*

- Mən bu məsələdə ABŞ hökumətinin əvəzinə danışmaq istəməzdim. Amma dünyada demokratiyanın yayılması, xüsusən ərəb inqilabları göstərdi ki, əgər sən siyasi müxalifəti təzyiq və təqiblərə məruz qoyursansa, bu, ölkənin uzunmüddətli inkişafı baxımından yaxşı hal deyil. Azərbaycan mənim Bakıda səfir olduğum dövrdəkindən fərqli olaraq indi zəngin ölkədir. İqtisadi özünəəminlik isə siyasi özünəəminlik yaradır. Amma əgər müxalifət sənin dediklərini bəyənmirsə, bu o demək deyil ki, onu sıxışdırmalısan, mediaya təzyiq etməlisən. İndi artıq Azərbaycanın ABŞ-ın iqtisadi yardımına ehtiyacı yoxdur, amma ölkədəki mülki cəmiyyət də iqtisadiyyatın tempinə uyğun inkişaf etməlidir. Azərbaycan cəmiyyətinin özünəməxsusluğunu qorumaqla yanaşı, ölkədə demokratiya, insan haqları sahəsində islahatlar aparmaq da mümkündür.

# Gənclərin Hüquqlarını Müdafiə Komitəsi mitinqə hazırlaşır

Komitə fevralın 13-də Bakı Şəhər İcra Hakimiyyətinə mitinqə yer ayrılması üçün müraciət edib. Hələlik onların müraciəti cavablandırılmayıb. Fevralın 25-də komitə üzvləri mitinqə hazırlıq məsələlərini müzakirə ediblər. Bildiriblər ki, İcra Hakimiyyəti harada yer versə, orada martın 4-də mitinq keçirməyə hazırdırlar. Mitinqə icazə verilməyəcəyi təqdirdə onların başqa planları var. Ancaq bunu hələlik açıqlamırlar. Gənclər mitinqdə təhsildə korrupsiya, siyasi məhbuslar və Qarabağ münaqişəsinin həllinin yubadılmasına etirazlarını bildirməyi düşünürlər. Gənclərin Hüquqlarını Müdafiə Komitəsi 2011-ci ilin yanvarında yaradılıb. Komitəyə bəzi siyasi partiyalar və müstəqil gənclər təşkilatları daxildir.

***Nüşabə Fətullayeva***




# «Mətbuata hücumlar-2011»

*Jurnalistləri Müdafiə Komitəsi (CPJ) "Mətbuata hücumlar -2011" adlı illik hesabatını açıqlayıb. Hesabatın Azərbaycana aid bölməsində deyilir ki, uydurma ittihamla həbs olunan Eynulla Fətullayev dörd ildən sonra azadlığa çıxıb. O, Avropa İnsan Haqları Məhkəməsinin onun azadlığını tələb etdikdən sonra azadlığa buraxılıb. Həssas mövzuları işıqlandıran azərbaycanlı jurnalistlərə hücumlar cəzasız qalır. İslam və hökumət haqqında tənqidi yazılar yazdığına görə Rafiq Tağı küçədə hücuma məruz qalıb və aldığı bıçaq yarasından ölüb.*

Müxalif «Azadlıq» qəzetinin iki əməkdaşı - Ramin Deko və Seymur Həziyev yazın əvvəlində döyülüblər. «Xural» qəzetinin əməkdaşı ilin sonunda əsassız ittihamla həbs olunub. İnsan haqlarına dair sənədli film çəkən İsveç televiziyasının əməkdaşları ölkədən çıxarılıb, erməni mənşəli olduğuna görə bir fotomüxbirin ölkəyə gəlməsi qadağan olunub. "The Washington Post" və "The New York Times" üçün yazan amerikalı jurnalist Amanda Erickson və Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun britaniyalı əməkdaşı Celia Davies iyunda Bakıda hücuma məruz qalıblar. Sentyabrda Reportyorların Azadlığı və Təhlükəsizliyi İnstitutunun jurnalisti İdrak Abbasovun evinə hücum olub. Hücum edənlərin şəxsiyyəti müəyyən edilməyib.

Hesabatda dünyadakı vəziyyət haqda deyilir ki, Pakistan jurnalistlər üçün ən təhlükəli yerdir. Burda keçən il 7 jurnalist öldürülüb. Liviyada 5, İraqda da 5 jurnalist öldürülüb. Keçən il dünyada 46 jurnalist həlak olub. 2011-ci ildə "ərəb baharı"nı işıqlandırarkən 15 jurnalist öldürülüb. Dünyada keçən il tutulan jurnalistlərin sayı isə 179-dur. Ən çox jurnalist İranda tutulub- 42. Özbəkistanda 5 jurnalist həbsdədir.

# Almaniyanın 49, Azərbaycanın 397 milyon xərclədiyi tədbir

## «Eurovision»da milyon birinciliyi

*Tərtərin Qaynaq kəndində bir çox ailənin dərdi birdir - su. Daha düzü, susuzluq. İçməyə, yuyunmağa, mal-qaraya su gətirmək üçün evlərindən gündə bir-neçə dəfə xeyli uzağa getməli olurlar. Kənddə hamının qapısında yağış suyu yığmaq üçün iri çəlləklər var. Bu suyu toyuq-cücəyə, mal-qaraya verirlər, bəzən elə qaynadıb özləri də içirlər. Azərbaycanda su deyib yanan onlarla belə kənd var. «Azərsu» mütəxəssislərinin mətbuata verdiyi məlumata görə, 1300 kəndin vəziyyəti ağır, 196 kəndin vəziyyəti isə kritik həddədir. Həmin 196 kəndin su dərdinə çarə qılmaq üçün 30 milyon manat lazımdır.*

Bəlkə də onlar bu il susuzluqdan qurtulacaqdılar. Əgər «Eurovision» olmasaydı. Tərtər kimi 15-dən artıq rayonun su təchizatına və kanalizasiya sisteminin yenidən qurulmasına ayrılmış vəsait Bakıda keçiriləcək «Eurovison» mahnı yarışması üçün tikilən İdman-Konsert Kompleksinə yönəldilib. Nazirlər Kabinetinin sərəncamı ilə müsabiqənin keçiriləcəyi sarayın tikilməsi üçün bu rayonların su və kanalizasiya büdcəsindən 57 milyon manat kəsilib.

**105 MİLYONLUQ BÜLLUR ZAL**

Rəsmi sənədlərdə bu bina İdman-Konsert Kompleksi adlansa da, «Eurovision» təşkilatçıları ona «Cristal Hall» və ya «Bakı Büllur Zalı» deyirlər. Bu zal 58 milyon manata başa gəlməli idi. Amma bu zalın tikintisinə NK-nın 24s saylı 6 fevral 2012-ci il tarixli sərəncamı ilə əlavə olaraq 46 milyon 900 min manat ayrılıb. Beləliklə, metal konstruksiyalı İdman-Konsert Kompleksi Azərbaycana təxminən 105 milyon manata başa gəlir. Hərçənd həm sifarişçi - Dövlət Əmlak Komitəsi, həm də onu tikən alman şirkəti - «Alpine Bau Deutchland AG» ümumi xərcin məbləğini gizli saxlamaq istəyir. Şirkətin kommersiya direktoru Rolf Herr qısaca deyir: «Dövlət Əmlak Komitəsinə gedin». Amma Əmlak Komitəsi və Maliyyə Nazirliyi sorğularımızı cavabsız qoydu.

**POLŞADAKI STADİONLA BÜLLUR ZALIN FƏRQİ**

Son illərdə «Alpine Bau Deutchland» Polşada futbol üzrə Avropa Çempionatının keçiriləcəyi stadionu da tikib. Rolf Herr deyir ki, onların Polşada 2-3 il vaxtları olub: «Futbol stadionunun ölçüləri də fərqlidir, 60-80 min tamaşaçıya hesablanıb. Bu bina isə 22-25 min tamaşaçı üçün nəzərdə tutulub. İsitmə, soyutma sistemi də qururuq. Bu layihələri müqayisə etmək olmaz. Polşadakı stadionun 70-80 faizi betondan ibarət idi. Beton bloklar Polşada istehsal olunurdu, burda isə hər şey Avropadan gətirilir. Dam orda da metal konstruksiyadan ibarət idi. Amma burdakı layihə dizayn baxımdan daha çətindir. Burda tavan bağlanır. Polşada isə stadionun tavanı tam örtülü deyil. Bakıdakı binanın damının konstruksiyası Polşadakı stadionla müqayisədə çox çətindir».

Rolf Herr deyir ki, bina uzunömürlüdür, amma o, rəsmi olaraq binaya neçə il zəmanət verdiklərini söyləmir: «Tutalım, maşın almısınız. Ona yaxşı baxmasanız 2 ilə dağılacaq. Amma yaxşı baxsanız, 20-30 il xidmət edə bilər».

*- Əgər layihə təcili olmasaydı, nə qədər vaxta tikilərdi? Nə qədər dayanıqlı olardı? Daha ucuzmu olardı?*

- Bunu deyə bilmərəm.

**«CAMAAT EVİNİ 1 İLƏ GÜCLƏ TƏMİR EDİR»**



Memar Elçin Əliyev

Memar Elçin Əliyev isə deyir ki, şirkət bu işi öhdəsinə götürübsə, keyfiyyətli görməlidir. 1 ilə tikilən binanın keyfiyyətinə gəlincə, Elçin Əliyev söyləyir: «Camaat mənzilini 1 ilə güclə təmir edir. Onlar bu boyda layihə gerçəkləşdirirlər. Hər şey ola bilər. Bəlkə də 100 fəhlənin yerinə 100 min fəhlə gətirsələr 2 aya tikmək olar. Amma düzü, tələskənlik olan yerdə problemlər də qaçılmazdır. Tutaq ki, özül qoyulanda betonun quruması üçün vaxt lazımdır. Amma bunu məşhur



«Cristal Hall»un layihəsi

bir şirkət inşa edirsə, yəqin bunları nəzərə alıb».

Elçin Əliyev əlavə edir ki, tikintinin yaxşı olması üçün hazırlıq dövrü də mühümdür: «Hansısa binanı 1 ilə tikmək üçün azı 1 il də hazırlıq işləri aparılmalıdır. Tikmək axırıncı mərhələdir. Belə bir binanı 2 ilə də tikmək olar, bəlkə 1 ilə də. Hər şey asılıdır şirkətin texniki imkanlarından, resurslardan. Bəlkə orda 10 minlərlə adam işləyir, onda tez tikmək olar...»

İdman-Konsert Kompleksinin tikintisi ilə bağlı sərəncam ötən il avqustun 8-də verilib. Oktyabrın 20-də isə maliyyə mənbəyi ilə bağlı başqa sərəncam verilib. Deməli, inşaatçıların 1 ildən daha az vaxtları olub.

**109 MİLYONLUQ YOL**

«Cristal Hall»un tikildiyi ərazidə - Dövlət Bayrağı Meydanı yaxınlığında yol da salınır. Daha dəqiq desək, Bakı-Ələt avtomobil yolunun çəkilişi çərçivəsində Bayıldan Bayraq Meydanına qədər 3 km-lik avtomobil yolu əsaslı təmir olunur və yenidən qurulur. Həmin ərazidə 3 yeraltı keçid də tikilir. Bunun üçünsə ilkin olaraq 65 milyon manat ayrılıb. Araşdırma zamanı bəlli olur ki, bu məbləğə «Bayraq Meydanı» ərazisində avtomobil yolunun genişləndirilməsi ilə əlaqədar su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması daxil deyil. Bunun üçün də 12 milyon manatdan artıq vəsait ayırıb.

Ölkə rəsmiləri bunun Bakı-Ələt avtomobil yolunun bir hissəsi olduğunu və tikintisinə yarışmadan qabaq başlandığını deyirlər. Üstəlik bəyan edirlər ki, bu yolun «Eurovision-2012»-yə dəxli yoxdur. Tikintini aparan «Azvirt» şirkəti isə yolun 3 km-lik hissəsinin müsabiqəyə qədər təhvil verilməli olduqlarını açıqlayır. Ancaq belə bahalı yolun texniki göstəriciləri haqda susub, sifarişçi «Azəryolservis» ASC-ni nişan verirlər. Bircə onu deyirlər ki, nəzərdə tutulmayan xərclərə görə, yolun qiyməti arta bilər.

***(davamı 10-cu səhifədə)***

# Almaniyanın 49, Azərbaycanın 397 milyon xərclədiyi tədbir

## «Eurovision»da milyon birinciliyi

(əvvəli 9-cu səhifədə)

### 1 km-i TƏXMİNƏN 37 MİLYON MANATA BAŞA GƏLƏN YOL

«Azvirt»lə danışandan az sonra məlum oldu ki, fevralın 6-da Nazirlər Kabineti 24s saylı sərəncamla yolun tikintisinə əlavə 20 milyon manat ayırıb. Hökumət həmçinin yolun çəkilişi zamanı tikinti altına düşən obyektlərin köçürülməsinə də əlavə 12 milyon 300 min manat ayırıb. Beləliklə, bu yolun 1 kilometri az qala 36,4 milyon manata başa gəlir. Halbuki Dünya Bankı 2 zolaqlı yolun çəkilişinə və ya təmirinə təxminən 1,2-2 mln dollar, 4 zolaqlı yolun tikintisinə 4-7 mln dollar xərcləyir. Dünya Bankından aldığımız məlumata görə, Azərbaycanda indiyədək 300 km yol çəkiblər və buna 950 milyon dollar xərclənib.

Bəlkə yolu belə bahalı edən tikilən 3 keçiddir? Amma fikrini öyrəndiyimiz mütəxəssislər deyirlər ki, keçidlər o qədər də baha başa gəlmir və onların layihədə olması məbləği bu qədər şişirdə bilməz. Bəs 3 km-lik yol niyə 109,3 milyon manat civarında dəyərləndirilib? «Azəryolservis»ə göndərdiyimiz suallara cavab veriləcəyi bildirilsə də, elə bu, vəd olaraq da qaldı.

**Bakı-Ələt yolunun Bayıldan Dövlət Bayrağına gedən 3 km-lik yolun xərci**

| Təyinatı | Ayrılan məbləğ (mln. Manat) | Əlavə ayrılıb | Cəmi |
|---|---|---|---|
| Yolun tikintisi | 65,0 | 20,0 | 85,0 |
| Su və kanalizasiya sisteminin qurulması | 12.0 | | 12.0 |
| Yol üzərində olan əhalinin köçürülməsi | 12.0 | | 12.3 |
| Cəmi | | | 109.3 |

Amma «Eurovision» ərəfəsində infrastruktur üçün nəzərdə tutulan xərclər bununla bitmir. Müsabiqəni keçirmək üçün hökumətin «B» variantı da var idi. Bu, Tofiq Bəhramov adına stadiondur ki, onun da təmir və bərpasına 40 milyon manat ayrılıb. Ötən ilin payızında isə stadionun maddi-texniki bazasının yaxşılaşdırılmasına, təmir və bərpasına təxminən 30 milyon manat ayrılmışdı.

**Dolayı və birbaşa «Eurovision» müsabiqəsinə ayrılan vəsait**

| Təyinatı | Məbləğ (mln.) |
|---|---|
| Dövlət Bayrağına gedən yol (3 km) | 109 |
| Baku Cristal Hall | 105 |
| T.Bəhramov adına stadion | 70 |
| Bayraq Meydanının abadlaşdırılması və həmin ərazinin enerji infrastrukturunun yaradılması | 55 |
| Beynəlxalq tədbirlərin keçirilməsi üçün İctimai TV-yə ayrılan vəsait | 8,5 |
| "Eurovision" yarışmasının təşkili üçün | 50 |
| **Cəmi** | **397 .8** |

### KORRUPSİYA, YOXSA HEYRƏTLƏNDİRMƏK HƏVƏSİ?

İqtisadçı Natiq Cəfərli hökumətin «Eurovision» müsabiqəsində bədxərc olduğunu düşünür: «Belə səxavətlə böyük pulların ayrılmasının səbəbləri müxtəlifdir. Birincisi, nəzarətsiz, qeyri-şəffaf xərclənən pullar korrupsiya mənbəyinə çevrilir. İkincisi, hakimiyyət öz düşüncəsinə və dünya görüşünə görə, bu yarışmaya qatılanları, beynəlxalq KİV-i meqa layihələrlə, vizual görüntü ilə heyrətə salmaq istəyir».

Müsahibimiz hesab edir ki, belə böyük vəsaitləri bu işlərə xərcləməkdənsə, təhsilə, səhiyyəyə, mədəniyyətə, sosial vəziyyəti ağır olan insanlara ayırmaq daha düzgün olardı. Natiq Cəfərli deyir ki, bu vəsaitlə bəzi xəstəliklərin müalicəsinə ayrılan xərcləri də artırmaq olardı.

**Ayrı-ayrı xəstəliklərin müalicəsi üçün dövlət büdcəsindən ayırmalar**

| Xəstəliklərin adı | Xəstələrin sayı | Bu xəstəlikdən ölənlərin sayı | 2012-ci il dövlət büdcəsində bu xəstəliklər üçün ayrılan vəsait (mln.manat) | Cəmi (mln.mant) |
|---|---|---|---|---|
| | 2010-11-ci illərin statistikası əsasında | | | |
| Onkoloji | 28 092 | 6633 | 21,5 | 21,5 |
| Hemiodoliz | 1800 | 252 | 23,5 | 23,5 |
| Diabet | 121 095 | 1060 | 21,5 | 21,5 |
| **Cəmi** | | | | **66.5** |

Natiq Cəfərli xatırladır ki, hələ də 4 minə qədər müharibə veteranı, şəhid ailəsi ev növbəsindədir. Onun sözlərinə görə, «Eurovision»a birbaşa və dolayı çəkilən xərclərə daha qənaətlə yanaşıb, xaricdə oxuyan tələbələrin sayını artırmaq olardı. Bu il xaricə göndərilən 1028 tələbənin təhsili üçün Dövlət Neft Fondundan 20 milyon manat ayrılıb. Müsahibimiz hesablayır ki, təkcə Baku Cristal Hall-ın əvəzində xarici ölkəyə 5 mindən artıq tələbə göndərmək olardı. Ya da əlavə 1300-dən artıq tələbənin 4 illik təhsil xərcini ödəmək olardı.


Natiq Cəfərli

### «EUROVİSİON»A BAŞQA ÖLKƏLƏRDƏ ÇƏKİLƏN XƏRCLƏR

2004-cü ildə «Eurovison»a ev sahibliyi edən qonşu Türkiyə birbaşa və dolayı təxminən 55 milyon manat xərcləyib. İstanbul Böyük Şəhər Bələdiyyəsindən AzadlıqRadiosuna verilən məlumata görə, onlar yarışma keçirilən binada - Abdi İpəkçi İdman Salonunda təmir işləri aparıblar, parkları qaydaya salıblar, bəzi yerlərdə ağac əkiblər, əlavə zibil qutuları gətiriblər. 24 saatlıq iş rejiminə görə təmizlik işçilərinin sayını artırıblar. Meydan və qala divarlarında işıqlandırılma sistemi qurulub. Abdi İpəkçi İdman Salonu yerləşən ərazidə 35 səyyar tualet quraşdırılıb və bir çox başqa işlər görülüb. Bu məbləğin içində həm də yarışma üçün birbaşa xərclər də nəzərdə tutulub.

| Ölkənin adı | İllər | Məbləğ (mln.manatla) |
|---|---|---|
| Ukrayna | 2005 | 23 |
| Serbiya | 2008 | 10 |
| Norveç | 2009 | 18 |
| Berlin | 2010 | 49 |
| Azərbaycan | 2011 | 50 (ümumilikdə 397,8) |

1 km-i 37 milyon manata başa gələn yolun tikintisində çalışan fəhlə Elşad Səfərov isə bu milyonlardan gündəlik 15 manat alır. 30-35 yaşlı, ailəsini hələ də öz ocağının başına yığa bilməyən Elşad Səfərov deyir ki, qarlı-çovğunlu gündə belə işdən qalmırlar. Gündə 10-11 saat işləyiblər ki, yolu vaxtında təhvil versinlər.

***Şahnaz Bəylərqızı***

# Taksi sürücülərinin üzləşdiyi yeni problem



Nəqliyyat Nazirliyinin Dərnəgüldə yerləşən cərimə dayanacağı

**Son günlər taksi xidməti göstərən sovet maşınlarına qarşı reydlərə başlanılıb. Reydləri Nəqliyyat Nazirliyi aparır. Şəhərin müxtəlif yerlərində saxlanılan sürücülər Dərnəgül qəsəbəsində nazirliyə məxsus xüsusi dayanacağa aparılır. Biz orda olanda həmin dayanacağın qapısı ağzında bir neçə sürücü dayanmışdı. Sürücü Alim Mürsəliyev iddia edir ki, taksi xidməti göstərmədiyi halda, nazirlik əməkdaşları aldadaraq onun maşınını əlindən alıblar.**

**«ƏL ELƏDİLƏR SAXLADIM, MİNƏN KİMİ AÇARI ALDILAR»**

«Yolda gəlirdim, əl elədilər, saxladım. Dedilər «Nəqliyyat Nazirliyindənik» və mən maşından düşdüm. Açarı və texniki pasportu aldılar ki, «gəl razılaşaq». Maşından 30-40 metr aralandıq və texniki pasportu qaytardılar ki, gedə bilərsən. Döndüm dala baxdım ki, maşınım yoxdur, sürüb gediblər». Alim Mürsəliyev deyir ki, bir müddət sonra aydınlaşdırıb ki, onun avtomobilini Nəqliyyat Nazirliyinin Dərnəgüldəki dayanacağa gətiriblər. Elə dayanacağın qapısı önündə dayanan sürücülərin hər biri bu kimi problemlə üzləşdiyini deyirdi.

**QONŞUSUNA GÖRƏ PROBLEMLƏ ÜZLƏŞƏN SÜRÜCÜ**

Özəl firmalardan birində sürücü işləyən Elvin Duruşov isə işə gələndə Buzovnadan qonşuları da onunla gəlib. Dediyinə görə, qadın maşından düşən kimi, Nəqliyyat Nazirliyinin işçiləri onun sənədlərini əlindən alıblar: «Mən səhər Buzovnadan gələndə yaşlı qonşumuzu da götürüb gətirdim metroya. O düşən kimi, nazirliyin əməkdaşları mülki formada mindilər maşına ki, sən taksi xidməti göstərirsən».

Sürücülərin dediyinə görə, birinci xəbərdarlığı pozanlar növbəti dəfə 200 manat cərimə olunurlar.

<u>HÜQUQŞÜNAS:</u> **SÜRÜCÜLƏRƏ QARŞI OLANLAR QANUNSUZLUQDUR**

Hüquqşünas Ərşad Hüseynov isə hesab edir ki, heç bir sürücünün sənədləri əlindən alına bilməz, nəqliyyat vasitəsi heç yerə aparıla bilməz: «Bunlar hamısı qəti qadağandır. Protokol tərtib oluna bilər ki, get bu məbləği hansısa banka ödə. Deyilən əməllər hamısı qanunsuzluqdur, qoçuluqdur».

***Maarif Çingizoğlu***

# Prezidentin keçdiyi yollar niyə bağlanır?

**Prezident İlham Əliyevin iştirak etdiyi tədbirlər, rayonlara səfəri, evdən işə getməsi və geri qayıtması daha çox yollarda hərəkətin məhdudlaşdırılması ilə yadda qalır. Çox uzağa getməyək, fevralın 21-də prezident Koroğlunun heykəlinin açılışını edərkən şəhərin mərkəzi küçələrində hərəkət bir neçə saat məhdudlaşdırıldı.**

Özəl şirkətdə çalışan Nihat Musaxanlı deyir ki, prezident keçdiyinə görə tez-tez yolların bağlanmasına şahid olur. Nihat sonuncu dəfə işə gecikdiyinə görə cərimələndiyini deyir: «Mən işə aeroport yolu ilə gəlirəm. Tez-tez prezident keçdiyinə görə bizi saxlayırlar. Sonuncu dəfə hardasa yarım saatdan çox saxladılar. İşə gecikdiyimə görə məni əvvəl xəbərdar edirdilər, amma həmin gün artıq məni 5 manat cərimələdilər».

**«BU, HƏRƏKƏT AZADLIĞININ MƏHDUDLAŞDIRILMASIDIR»**

Hüquqşünas Ələsgər Məmmədli bu fikirdədir. Deyir ki, Azərbaycanda hər bir sakinin bu cür halla rastlaşması adiləşib. Ələsgər Məmmədli deyir ki, konstitusiyada hərəkətin yalnız fövqəladə hallarda, müharibə vəziyyətində və hüquqların qorunması zamanı məhdudlaşdırıla biləcəyi nəzərdə tutulub: «Yolu bağlamışdılar. Mən xəstə ailə üzvümü təcili xəstəxanaya yerləşdirməli idim. Polisdən məhdudlaşdırmanın səbəbini soruşanda bildirdi ki, bu, «bir nömrəli» tapşırıqdır, kiməsə zəng etdi və mənimlə kobud danışdı. Konstitusiyada belə bir məhdudlaşdırma halı yoxdursa, bunun hüququ əsası yoxdur».

Ələsgər Məmmədli prezidentin bir neçə ay bundan əvvəl Qubaya səfəri zamanı onun hərəkətinə imkan verməyən polisin kobud davranışı ilə bağlı Dövlət Yol Polisinə şikayət edib. Və həmin polis əməkdaşının tutduğu vəzifədən azad olunması ilə bağlı istefa ərizəsi ona təqdim edilib.

**"YOL HƏRƏKƏTİ QAYDALARI HAQQINDA" QANUNDA DEYİLİR Kİ...**

Baş Dövlət Yol Polisi İdarəsinin mətbuat xidmətinin rəhbəri Kamran Əliyev isə deyir ki, bu cür hallarda yollarda hərəkətin məhdudlaşdırılması «Yol hərəkəti qaydaları haqqında» qanunda təsbit olunur: «Kütləvi tədbirlər zamanı həmin ərazidə hərəkət müvəqqəti məhdudlaşdırıla bilər. Dövlət tədbirləri, müvafiq icra hakimiyyəti orqanlarının



Arxiv foto: İlham Əliyevin korteji

tədbirləri zamanı nəqliyyat vasitələrinin hərəkət istiqaməti dəyişdirilir. Onların alternativ yollarla hərəkəti təmin olunur».

**QANUNDAKI ZİDDİYYƏTLƏR..**

Hüquqşünas Ərşad Hüseynov isə deyir ki, «Yol hərəkəti qaydaları haqqında» qanunda ziddiyyətlər var. Qanunun 12-ci maddəsində göstərilib ki, hərəkət yalnız kütləvi tədbirlər zamanı, əvvəlcədən xəbərdarlıq edilmək şərtilə məhdudlaşdırıla bilər. Həmin qanunun 48-ci maddəsində isə prezident və onun ailə üzvlərinin, baş nazir və Milli Məclis sədrinin üstün keçid hüququna malik olduğu yazılıb:«Qanuna görə, bu halda həmin şəxslərə digər nəqliyyat vasitələri yol verməlidir. Amma daha yarım saat yox, 1-2 dəqiqə, keçib gedəndən sonra yollar açılmalıdır».

***Nüşabə Fətullayeva***

# Bakı fəvvarələrinə 20 milyon manat xərclənib

*Satınalmalar üzrə Dövlət Agentliyinin saytında yerləşdirilmiş məlumata görə, 2011-ci ildə Bakı Şəhər İcra Hakimiyyəti 221 milyon 117 min manatlıq tender keçirib. Keçən il keçirilmiş tenderlərlə tanışlığı davam etdiririk. Şəhər rəhbərliyi 2011-ci ildə paytaxtda yeni fəvvarələrin inşasına 20 milyon 5 min 690 manat, tarixi əhəmiyyətli binaların və adi binaların dam örtüklərinin, fasadlarının yenidən qurulması, təmir-bərpası, təmizlənməsi və işıqlandırılmasına 88 milyon 710 min 370 manat xərcləyib. Bakı Şəhər İcra Hakimiyyətinin inzibati binasının təmiri ilə bağlı elan olunmuş tenderdə "Abad" İTTFŞ qalib seçilib və bu işlərə 1 milyon manat ayrılıb.*




### BAKI YOLLARININ TƏMİRİNƏ 101 MİLYON AYRILIB

Bakı və onun qəsəbə, kənd yollarının əsaslı təmiri, yolların asfalt örtüyünün təmir və yenidənqurulmasına ümumilikdə 101 milyon 312 min 343 manatlıq tender keçirilib. Bakıda torpaqların texniki rekultivasiya işlərinə isə 200 min manatdan çox pul xərclənib. "Ge Force" MMC isə Bakıdakı köhnə binanın söküntüsü ilə bağlı tenderdə qalib gəlib. Şirkətə bu işlərin icrası üçün 102 min manat ayrılıb.

Mənzil fondunun əsaslı təmiri və yenidənqurulmasına 1 milyon 778 min 366 manat, Bakının küçə və prospektlərinin abadlaşdırılmasına 21 milyon 424 min 157 manat verilib.

### BAKIDA GÜL, AĞAC-BƏZƏK BİTKİLƏRİNƏ 5 MİLYON MANAT

Bakıdakı gül və gül məhsullarına 20 min, əkin materiallarına 4 milyon 245 min 254 manat, ağac-bəzək bitkilərinə 142 min 550 manat sərf olunub. 340 min manata isə gübrə alınıb.

***Nüşabə Fətullayeva***

# Görünməmiş təzad

## Səhiyyə Nazirliyi 36 min, Göyçay Mərkəzi Rayon Xəstəxanası isə 269 873 manat xərcləyib




*Satınalmalar üzrə Dövlət Agentliyinin müxtəlif dövlət qurumlarının 2011-ci ildə elan etdikləri tenderlər haqqında məlumatının təqdimatını davam etdiririk. Bu dəfə hökumət qurumlarının 2011-ci ildə dəftərxana mallarının alınmasına dövlət büdcəsindən aldıqları pulların siyahısını təqdim edirik.*

*Təhsil Nazirliyi - 3 267 757 manat*

Ali məktəblərin bir neçəsinin ötənilki dəftərxana xərcləri bu şəkildə olub:

Qrafikdən göründüyü kimi, Sumqayıt Dövlət Universiteti dəftərxana xərclərinə başqalarından bir neçə dəfə çox xərcləyib. Məsələn, Azərbaycan Dövlət Pedaqoji Universitetində təxminən 7 min tələbə təhsil alır, bu universitet dəftərxanaya 49678 manat xərcləyib. Amma tələbələrinin sayı bundan iki dəfə az olan – təxminən 3500 tələbənin təhsil aldığı Sumqayıt Dövlət Universiteti dövlət büdcəsindən dəftərxanaya 201 722 manat xərcləyib.

*Səhiyyə Nazirliyi – 2 415 000 manat*

Amma bir universitetdən daha çox dəftərxana ləvazimatları işlətmiş rayon xəstəxanası var. Bu, Göyçay Rayon Mərkəzi Xəstəxanasıdır. Həmin xəstəxana 2011-ci ildə dəftərxanaya 269 873 manat xərcləyib.

Səhiyyə Nazirliyinin tabeliyində olan xəstəxana, idarə və institutlar 2011-ci ildə dəftərxana və təsərrüfat malları xərcləri aşağıdakı kimi olub:

• Səhiyyə Nazirliyi -

36 440 manat, Pernital Mərkəz – 38 200 manat,

• Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzi - 120 000 manat,

• Ucar Mərkəzi Rayon Xəstəxanası – 97 472 manat,

• Milli Onkologiya Mərkəzi – 48 753 manatlıq dəftərxana ləvazimatı alıb.

*Mədəniyyət və Turizm Nazirliyi - 672 585 manat*

• Mədəniyyət və Turizm Nazirliyinin ayrı-ayrı idarələrində dəftərxana xərcləri belədir: Bərdə rayon şöbəsi – 140 000 manat,

• Hacıqabul rayon şöbəsi – 28 683 manat,

• Gədəbəy rayon şöbəsi – 49 000 manat,

• Qubadlı rayon şöbəsi – 26 050

• Sumqayıt şəhər şöbəsi – 45 853

• M.F.Axundzadə adına Milli Kitabxana – 26 430 manat

*Daxili İşlər Nazirliyi - 302 185 manat*

• Nazirliyin özü – 6 8411 manat,

• Bakı Baş Polis İdarəsi – 34 999 manat,

• Baş Mühafizə İdarəsi – 29 920 manat.

Satınalmalar üzrə Dövlət Agentliyinin saytında verilən tenderlərə dair məlumatda bütün nazirliklər üzrə dəftərxana xərcləri aşağıdakı kimidir:




***Nüşabə Fətullayeva***

# Rafiq Tağının ailəsi qorxu içində yaşayır

**Yazıçı-publisist Rafiq Tağının ailəsinin Azərbaycan prezidentinə göndərdiyi müraciətə reaksiya gəlib, yazıçının ailə üzvləri prokurorluğa dəvət olunublar. Bu barədə AzadlıqRadiosuna yazıçının həyat yoldaşı Mailə Tağıyeva məlumat verib. Onun sözlərinə görə, istintaqın ləng gedişi ailəni qane etmədiyi üçün fevralın 20-də prezident İlham Əliyevə teleqramla müraciət ediblər. Ayın 21-də isə müraciətin daxil olduğu barədə cavab gəlib:**


Rafiq Tagi

**«ÜMİD PREZİDENTƏDİR»**

«Hadisədən üç aya yaxın vaxt keçir, hələ bir xəbər yoxdur. Ona görə prezidentə müraciət etmişik. Ümid prezidentədir. Başqalarının qatili tapıldığı halda, Rafiqi öldürən necə ola bilər ki, tapılmasın? Əgər tapılmasa, elə biləcəm ki, bu qətldə hökumətin əli var. Ömür boyu ürəyimdə qara qalacaq ki, dövlətin əli oldu bu işdə. Amma tapılsa, şübhəm qalmayacaq».

Mailə Tağıyeva deyir ki, qatil tapılmayanadək rahat olmayacaqlar. Özünün və övladlarının həyatına görə qorxu içində yaşayır. Ona görə də ümid prezidentədir. Onun sözlərinə görə, prezidentə müraciət edəndən sonra onları istintaqın gedişi ilə bağlı məlumatlandırmaq üçün prokurorluğa dəvət ediblər: «Hələ getməmişik. Düzdü, bizi çağırırlar, amma eyni sözləri deyirlər: «Axtarırıq». Sizin xəbəriniz yoxdur ki, biz nə qədər materiallar toplamışıq. Guya prezidentin də göstərişi var. Yəni deyirlər boş oturmamışıq. Amma nə olsun, nəticə yoxdur».

**«İŞLƏYƏNİM YOXDUR»**

Qeyd edək ki, mətbuatda Rafiq Tağının ailəsinin Azərbaycanı tərk edib xaricə gedəcəyi barədə məlumatlar da yayılıb. Belə fikir yazıçının qardaşları tərəfindən də səsləndirilib. Mailə Tağıyeva isə qatil tapılmayınca heç yana getməyəcəyini deyir. Baxmayaraq ki, özünün də dediyi kimi, ailənin maddi durumu yaxşı deyil: «Evdə vəziyyət pisdir. İşləyənim yoxdur. Uşaqlar oxuyur. Bir dənə işləyən Rafiq idi, o da...»

Mailə Tağıyeva düşünür ki, onun həyat yoldaşının başına gələnlərin səbəbkarı həkimlərdir. Sonuncu iynədən sonra Rafiq Tağının vəziyyəti pisləşib və o keçinib. Amma tibbi ekspertiza həkimlər amilini ört-basdır edib.

***İlqar Rəsul***

# Hökumət qazın, işığın bildirişsiz kəsilməsini qadağan etdi

Nazirlər Kabineti qazdan və elektrik enerjisindən istifadə qaydalarına dəyişiklik edib. «APA-ECONOMICS»in məlumatına görə, bu barədə qərar «Qaz təchizatı haqqında» və «Elektroenergetika haqqında» qanunlara dəyişikliklərin edilməsi barədə Azərbaycan prezidentinin 2011-ci il 22 dekabr tarixli sərəncamının icrasını təmin etmək məqsədi ilə qəbul edilib.

Qərarlara əsasən, qaz və elektrik xətlərinin qanunsuz olaraq kəsilməsi və ya istehlakçıya yazılı bildiriş göndərilmədən qazın, elektrikin və istilik enerjisinin verilməsinin dayandırılması qadağan edilir.

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru




# İçərişəhərə virtual tur açıldı

"İçərişəhər" Dövlət Tarix- Memarlıq Qoruğu İdarəsi tərəfindən "Virtual İçərişəhər turu" istifadəyə verilib. APA -nın məlumatına görə, "Virtual İçərişəhər turu"nun rəsmi açılışı da gerçəkləşib. Açılışda çıxış edən Qoruq İdarəsinin rəis müavini Samir Nuriyev bildirib ki, layihənin əsas məqsədi İçərişəhəri daha da populyarlaşdırmaq və buradakı tarixi və mədəni abidələri təbliğ etməkdir. Virtual tur Qoruq İdarəsinin saytında yerləşdirilib. İçərişəhərin gecə və gündüz görüntülərindən ibarət bu xidmətin köməyi ilə ziyarətçilər İçərişəhərə virtual səyahət edə biləcəklər.

Virtual tur İçərişəhərdəki əsas turist marşrutlarını və abidələri əhatə edir. Xəbərdə vurğulanır ki, tur 80-ə yaxın dayanacaq nöqtəsindən və 150-dən artıq panorama şəkillərindən ibarətdir. Gələcəkdə virtual turdakı dayanacaq nöqtələrinin sayının artırılacağı nəzərdə tutulub. 360 dərəcəlik panorama və bir-birinə keçid imkanı olan şəkillərdən ibarət bu xidmətdən turistlər, xaricdə yaşayan və buranı gəzmək imkanı olmayanlarla yanaşı, Azərbaycan vətəndaşları da istifadə edə biləcəklər.

Xatırladaq ki, virtual tur http://icherisheher.gov.az/virtual_tur saytında yerləşdiirlib. Bu sayt Azərbaycan, ingilis və rus dillərində fəaliyyət göstərir.

***Sevda İsmayıllı***




Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiniz.

# Kreml Putini sekslə təbliğ edir


"Putinin ordusu"ndakı qızların çəkdiyi videodan kadr

"Qorxuram, həkim, istəyirəm seçimim sevgi əsasında olsun." Bunu deyən gənc qıza həkimin də cavabı budu ki, qorxmasın, birinci dəfə hamı qorxur. İlk baxışdan yaşı 18-dən yuxarı olanlar üçün film süjetinə bənzəyən bu klip Rusiyada prezident seçkisində istifadə olunan təbliğat çarxıdır. Süjetin ardında da həkim yanındakı qıza üz qabığında Baş nazir Vladimir Putinin şəkli olan "Time" jurnalını işarə edir. Deyir ki, inam sevgidir. Bunun da ardınca qız qalxıb özünü şən halda seçki məntəqəsinə çatdırır. Bu, Kreml yönümlü "Naşi" gənclər təşkilatının martın 4-də keçiriləcək prezident seçkisi üçün çəkdiyi seksual məzmunlu təbliğat kliplərindən biridir.

Keçən il də özlərini "Putinin ordusu" adlandıran qızlar Putinə sevgi yolunda paltarlarını cırmışdılar. Daha bir dəfə də qızlar birlikdə Putin üçün şokolad hazırlamışdılar. Onlar Putinə dəstək üçün maşın da yumuşdular.

Putinin menecerləri, görünür, kampaniyalarını gənclərə, şəhərdə böyümüş gənc peşəkarlara ünvanlayırlar. Bu gənc peşəkarlar Putinə dəstək zümrəsinin tam özülünü təşkil edir. Amma indi onlar daha çox siyasi hüquqlar tələb edirlər. Ona görə hazırda həmin təbəqə Rusiya müxalifətinin də əsas hədəfidir.

**Vladimir Putinin qeyri-adi təbliğat vasitəsi olan videolara AzadliqRadiosu.az saytında baxmaq olar.**

# Erməni müğənni Bakıya gəlməyə hazırdı

«Eurovision 2012» mahnı müsabiqəsində Ermənistanın təmsil olunub- olunmaması bu ölkədə müzakirə edilməkdədir. Namizədlər müsabiqədə iştirak etmək niyyətində olduqlarını bildirsələr də, Bakıda yaxşı qarşılanmayacaqlarını düşünürlər. Sosial şəbəkələrdə namizədlər sırasında ən şanslılardan biri sayılan «Dorians» rok-qrupun solisti Qor Sucyan AzadlıqRadiosunun Yerevan bürosuna deyib ki, necə qarşılanmasından asılı olmayaraq Bakıya getməyə hazırdır:

«Mən düşünürəm ki, orada yaxşı adamlar da var və bizimlə yaxşı rəftar edəcəklər. Həmin adamlar bizimlə düşmən olmaq istəmirlər. Yəqin ki, belə adamlar var və onların sayı çoxdur. Bizə qəzəbli, mənfi münasibəti olanlar da az deyil. Biz buna da hazırıq. Azından biz səhnəyə çıxanda hər cür fitə basılmağa hazırıq, bu, təbiidir, belə şeylər olmalıdır. Biz elə oğlanlardan deyilik ki, özümüzü pis hiss edək, acıqlanaq. Biz Bakıya xoş əhvalla, yaxşı münasibətlə gedəcəyik».

***İlqar Rəsul***

# AzadlıqFM-in vaxtı dəyişdi

İndi hər həftənin cümə günü 14:00-15:00 arasında Facebook məkanında baş verən maraqlı olayların müzakirəsinə qa qatıla bilərsiniz. Facebookda xüsusi fəallığı ilə fərqlənən şəxslər verilişə dəvət edilir. Veriliş eyni vaxtda AzadlıqRadiosunun Facebook səhifəsində də yayımlanır ki, Facebook istifadəçiləri canlı olaraq şərhlər yaza bilsinlər. Azadlıq FM-in arxiv səhifəsi də var.






# Ankarada İncilin nadir nüsxəsi tapılıb

*Ankara ədliyyəsinin arxiv binasında 1500 yaşı olan İncil tapılıb. Türkiyə mediasının yaydığı məlumata görə, bu kitab Süryəni əlifbası ilə yazılıb və Arami dilindədir. Bu dil İsa peyğəmbərin danışdığı dil kimi qəbul edilir. Hazırda isə bu dildə yalnız Suriyanın Dəməşq şəhəri yaxınlığındakı bir kənddə danışılır.*

Kitab 2000-ci ildə Aralıq dənizi bölgəsində həyata keçirilən qaçaqmalçılıq əməliyyat zamanı bir cinayətkar şəbəkə üzvlərindən alınıb, sahibsiz olması ucbatından, ədliyyə arxivinə təhvil verilib. Bu günlərdə çıxarılan məhkəmə qərarına əsasən, unikal İncil polis müşayiəti ilə Etnoqrafiya Muzeyinə təhvil verilib. Ona təxminən 20 milyon avro qiymət qoyulub. Vatikan artıq kitab üzərində araşdırma aparılması üçün icazə istəyib.

# İran qadınları işdə eyni geyimdə gəzəcək

*İran hökuməti dövlət qulluğunda işləyən qadınlar üçün uniforma tətbiq edir. Yeni qaydalar Şərq təqvimi ilə Yeni ilin başlanğıcından – martın 21-dən tətbiq ediləcək. İran xəbər agentliklərinin məlumatına görə, yeni geyim formaları dini və mədəni meyarlara uyğun olaraq hazırlanacaq. Geyimlər əsasən tünd göy və boz rəngdə olacaq.*

Rəsmilər bildirir ki, yeni uniformanın yaradılması qərarı dövlət qulluğunda olan qadınların öz xahişi əsasında çıxarılıb. Daxili işlər nazirinin müavini Alireza Afshar deyib ki, qadın əməkdaşlar məcburən yox, öz istəkləri əsasında uniforma geyəcəklər. Bundan əlavə, İran hökuməti tələbə qızlar üçün də xüsusi geyim forması tətbiq etməyi planlaşdırır.

# Nazirlik cizgi filmlərini bəyənmədi



**Mədəniyyət və Turizm Nazirliyinin bir dəqiqəlik cizgi filmləri müsabiqəsinə yekun vurulub. Bu xəbəri Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidmətindən APA-ya bildiriblər. Məlumata görə, bir dəqiqəlik cizgi filmləri müsabiqəsinə daxil olmuş bütün işlər münsiflər heyəti tərəfindən qiymətləndirilib. Münsiflər heyəti filmlərin bir qisminin reqlamentə uyğun olmadığı qənaətinə gəlib. Eyni zamanda qeyd olunub ki, iştirakçılar yüksək səviyyəli 5 və ya 10 dəqiqəlik müstəqil cizgi filmi yaratmaq qabiliyyətini nümayiş etdirməyiblər.**

Bu səbəbdən nəzərdə tutulmuş mükafatların verilməməsi qərara alınıb. Eyni zamanda müəyyən maraq doğuran bir neçə filmin müəlliflərini qeyd etmək məqsədi ilə nazirlik tərəfindən hər biri 500 manat məbləğində 3 həvəsləndirici mükafat təsis edilib və onları müsabiqənin reqlamentinə cavab verən və daha çox bal toplamış işlərin müəlliflərinə vermək qərara alınıb. Xatırladaq ki, cizgi filmləri müsabiqəsinə ötən ilin payızından start verilmişdi.

***Sevda İsmayıllı***

# CERN Eynşteynə qarşı



İşıq sürətindən böyük sürət alınan təcrübələrdə fiziklər mümkün xətanın yerini tapıblar. Bunu Cenevrədəki CERN - Nüvə Tədqiqatları üzrə Avropa Təşkilatı bildirir. CERN-in sözçüsü James Gillies deyib ki, təcrübədəki xəta fiber-optik birləşmələrlə bağlı ola bilər. Bu da təcrübənin nəticəsinə təsir edə bilərdi. James Gillies AzadlıqRadiosuna deyib ki, gələcək hesablamalar və yeni təcrübə ilin sonuna kimi aparılacaq. CERN təcrübədə işıq sürətindən böyük sürətə nail olduğunu iki dəfə elan edib. CERN axırıncı dəfə sentyabrda bildirdi ki, neytrinoya işıq sürətindən böyük sürət verilib. Ancaq bu, Albert Eynşteynin nisbilik nəzəriyyəsinə ziddir.

# AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

## Qırılan ağac



***Yüklədi: Asif Mərzili***

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:**

efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

## necə dinləməli...

## 24 saat

## Mobil telefonda canlı:

İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

## Video və Fotolar







**Qaynar Xətt:** **436-77-41**

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30

**Bizimlə əlaqə:**

**E-mail:** efir@AzadliqRadiosu.az



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tbilisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email:fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz